CALAL MAHMUDOV

# BAKI NEFTİ, NEFT MİLYONÇULARI VƏ NOBEL QARDAŞLARI

*(Elmi-publisistik monoqrafiya)*

**B a k ı – «Nurlan» – 2005**

Elm və Təhsil Mərkəzi
„Təfəkkür" Universiteti
Kitabxana

*Kitaba rəy verənlər:*
**Məmmədov Ə.Ə.**
*texnika elmləri doktoru, professor*

**Hacıyev F.M.**
*Geologiya – mineralogiya elmləri doktoru, professor*

*Elmi redaktor:*
**Abdullayev Z.S.**
*texnika elmləri namizədi, dosent*

**Calal Müseyib oğlu Mahmudov, texnika elmləri doktoru, professor. «Bakı nefti, neft milyonçuları və Nobel qardaşları» (Elmi-publisistik monoqrafiya). Bakı, «Nurlan», 2005. – 336 səh.**

Elmi-publisistik monoqrafiyada Azərbaycanın yeraltı sərvətləri haqqında tarixi-statistik oçerk, xüsusilə respublikanın iqtisadiyyatında onların yeri, Azərbaycanda və dünyada neft sənayesinin inkişaf mərhələləri, müasir vəziyyəti və perspektivləri şərh edilir; Bakının neft milyonçularının və «Nobel qardaşları» şirkətinin Azərbaycan neft sənayesində sahibkarlıq fəaliyyətləri araşdırılır, onların ailə həyatı və faciəli talelərı haqqında məlumat verilir; Azərbaycanın yeni neft strategiyasının bəzi məqamları, xarici neft şirkətlərinin fəaliyyəti, respublikanın iqtisadiyyatında onların rolu və Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasının marşrutları müqayisəli təhlil olunur.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$\frac{4702000000}{N - 098 - 2005}$ Qrifli nəşr

© «Nurlan», 2005

JALAL MAHMUDOV

# BAKU OIL, OIL BARONS AND NOBEL BROTHERS

*(scientific-publisistic monography)*

BAKU

"NURLAN" publishing house

2005

# A BRIEF INFORMATION ON THE CONTENT OF THE BOOK

Dear readers! I hope that this scientific–publisistic monography should be very useful for you and I believe that after reading this book you will get a lot of information and find answers to many questions interested you and you will enrich your world outlook.

The book consists of four chapters. The first chapter is devoted to the natural resources of Azerbaijan, its role in the development of our republic economy, to the "Siemens" activity in the Gadabay-Dashkasan coal deposit and to the problems of the oil industry development in Azerbaijan.

The enterpreneurship activity of the Baku oil barons, which had a great importance in the civic, cultural and charitable fields, as well as lives of oil barons is described in the second chapter.

The activity of the "Nobel Brothers" company in the field of oil extraction and refinery, the commerce-industry and management structures, the Alfred Nobel's life and the creation of Nobel Prize are commented in the third chapter of the book.

New oil strategies of our country, the main routes of the Azerbaijan oil export to the foreign markets and their comparable analysis are worked out in the last chapter of the book.

Working on this book besides the mentioned sources, we used corresponding materials of the famous magazine called "EL". That's why I'm grateful to the editor in chief Gunel Anarqizi, the editor Gulnaz Ganberli, the collaborator of the magazine M. Mirzoyev and military journalist Shamistan Nazarli, who presented the original photos. The book is considered for a large mass of readers and I am grateful to those who will express their attitude to this book.

# MÜƏLLİFDƏN

Əziz oxucular! «İstehsal sahələrinin texnologiyası və sənaye ekologiyası» adlı 15 çap vərəqi həcmində dərs vəsaitim 2001-ci ildə çap olunmuşdur. Kitab müxtəlif auditoriyalarda müzakirə edilmiş və ünvanıma xeyli sayda məktublar gəlmişdir. Rəylərdə kitabın nəinki ali məktəb tələbələri, hətta geniş oxucu kütləsi üçün də dəyərli olduğu qeyd olunmuşdur. Onlar həmçinin kitab haqqında tövsiyələrini də vermişlər. Buna görə mən bütün oxucularıma minnətdarlığımı bildirərək onların təkliflərini gələcək elmi yaradıcılığımda nəzərə alacağıma söz vermişdim.

Oxucular Azərbaycanın Gədəbəy rayonundakı mis yataqlarını vəhşicəsinə istismar etmiş «Simens» şirkətinin, Bakı neft sənayesində çevik sahibkarlıqla məşğul olmuş və külli miqdarda sərvət aparmış «Nobel qardaşları» şirkətinin fəaliyyətlərindən, Nobel mükafatının yaranması tarixindən, Bakının neft milyonçularının sahibkarlıq fəaliyyəti və talelərindən, hazırda Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətlərinin ölkəmizin iqtisadiyyatındakı rolundan geniş məlumat verməyi xahiş edirlər.

Hörmətli oxucular! Sizin təkliflərinizin hamısını dərslik və ya dərs vəsaitində nəzərə almaq mümkün olmasa da, mən verdiyim sözə əməl etməyə çalışmışam. Ona görə də mövzuya aid arxiv sənədləri, kitabları axtarıb tapmağa, dövri mətbuatda çap olunmuş məqalələri, materialları və nadir fotoşəkilləri toplamağa, ağsaqqalları sorğu-suala tutmağa, nəhayət, aylarla, illərlə yazı masası arxasında oturub «Bakı nefti, neft milyonçuları və Nobel qardaşları» adlı elmi-publisistik monoqrafiya yazmağı özümə borc hesab etdim.

Güman edirəm ki, oxucular borc sözünə görə məni düzgün başa düşəcəklər, ona görə ki, elmi-pedaqoji fəaliyyətimlə tanış olan alimlər, mütəxəssislər və məni yaxından tanıyanlar çox yaxşı bilirlər ki, heç vaxt şöhrət, maddi maraq arxasınca